

Afət Viləşsoy

## NƏNƏMƏ MƏKTUB

Deyir, su aparıb o körpüləri,
Nənə, sən necəsən, kefin necədi?
Babadan qalanlar beləcə çökdü,
Dalanın necədi, evin necədi?

Deyir, su aparıb o körpüləri,
Yuyub qəbirlərin daşını yuyub.
Kimsəsiz məzarlar sevinə, bəlkə,
Sinəsini yuyub, başını yuyub...

Deyir, su aparıb o körpüləri,
Mənim son gedəcək yerim necədi?
Anamın-atamın tək yadigarı,
Ölənim necədi, dirim necədi?..

## MƏN SƏNİNÇÜN DARIXANDA...

Ruhun duymaz, ölüb qallam yolunda,
Yazıq canım, duruxanda nə edim?
Sən Allahın mənə olan sevgisi,
Mən sevgiyə başağrısı, dərd idim.

Ürəyimin üzü də var, üzülmür,
Sənsiz olan yuxularım yozulmur,
Adam oğlu, döz deyirsən, dözülmür,
Həsrət içdim, kədər uddum, qəm yedim.

Səndən gələn kəramətdi mənimçün,
Lap behiştə işarətdi mənimçün,
Səhər-axşam ibadətdi mənimçün,
Mən səninçün sevgimə də din dedim.

Qəfil sənə qoxum gəlsə, nə dersən?
Külək olub, işıq olub gələrsən?
Can yiyəsi, yenə özün bilərsən:
- Mən səninçün darıxanda nə edim?

## OLUR

Sinədə döyünən sevən könülsə,
Gördüyü iş-gücü sədaqət olur.
Yanaq darıxanda dodaq yanğısı,
Ürək darıxanda məhəbbət olur.

Günahlar yığılsa qismət evinə,
Abır yaxın düşməz ismət evinə,
Tanrıya qayıdan gülə, sevinə,
Tövbə yovuşanda hidayət olur.

Ömür tab eləsə, mənzil uzanır,
Həyat sınağında nəfəs sozalır,
Bəndə əl tutanda savab qazanır,
Allah əl tutanda səadət olur!

## XATİRƏLƏRİN

Könlündən su çəkib, maya götürüb,
Xəmrimdən yoğrulub xatirələrin.
Xatirən elə bir körpə misalı,
Ovcuma doğulub xatirələrin.

Yuxum sən qocanın qarısı deyil,
Bu, sənə "Fatmanın darısı" deyil,
Yığdığın hələ də yarısı deyil,
Yuxuma dağılıb xatirələrin.

Cüt gözün yorular tək balışımdan,
Sevgini gəl ələ, tök balışımdan,
Ay adam, ruhunu çək balışımdan,
Baxarsan, boğulub xatirələrin.

## YUXU

Gözlərin balınca tamarzı qala,
Ömrün otuzunda buta alasan.
Gedib bir bədbəxti yarıtmayanda
"Xalxın qızları"ndan geri qalasan.

Ayrı ocaqların közünü çatıb
Eyni atəşinən oda düşəsən.
Ağıllı adamın yadından çıxıb,
Dəlinin biriyçün yada düşəsən.

Baxışın yol ala qapısınacan,
Baxışı tərs gələ, üzünə dura,
Özünü görəsən, ta qadın olmaq
Yuxudan duranda gözünə dura.

## YOLA VERİR

Ürəkdən qucaqlamayan
Qollar məni yola verir.
"Başına dönərəm" - deyən
Dillər məni yola verir.

Darı töküb sanatdırır,
Şərə salıb, qan atdırır,
Kor ocağı qalatdırır,
Yollar məni yola verir.

Sükanı dəli əldədi,
Sağa verir, sola verir.
Yola verir ömür məni,
Otuz ildi yola verir.

## DEYƏCƏM

İzini qapımdan necə silim mən?
Hənirin tutubdu dalanımı da.
Baxışım hamıdan gizlənə bilir,
Heç kim tuta bilmir yalanımı da.

Başıma gələnlər başımdan böyük,
Çevrildin ruhumun küsdüyü yerə.
Biz ki əvvəl gündən xoşbəxt deyilik,
Qaytar ümidləri susduğu yerə.

Heç zaman deməədim "sevirəm səni",
Dərdimi bir yana quyla,"deyəcəm".
Bu axşam ruhumla işin olmasın,
Hələ iki yerdə layla deyəcəm.

## TÜSTÜ

Nə içki içirsən, qarışım sənə,
Nə də ki siqaret düşkünlüyün var.
Bəs niyə bu qədər çəkirəm səndən?
Bəs niyə bu qədər küskünlüyün var?

Hərdən istəyirəm qaçım əlindən,
Səndən daha betər duzağa düşüm.
Necə bir büt qaçar xaçın əlindən,
Düşüm əsrlərcə uzağa düşüm.

Axtara el-aləm, axtara məni,
Tapalar bir bülbül xarabasında.
İllərdi əzilən sınıq könlümü
Görələr bir əlil arabasında.

## SEVƏNLƏR DARIXAR

Dağılar yuxusu darılar kimi,
Butalar uyumaz, qalmaz dincə də.
Pəncərə önündə ay şirniklənər,
Sevənlər darıxar aylı gecədə.

Üzülər, nəzilib piləyə dönər,
Hər zəngdən yanağı oda bürünər,
Otaqdan otağa keçər, sürünər,
Sevənlər darıxar aylı gecədə.

Oxunar ürəyi baxışlarından,
Sevginin vurduğu naxışlarından,
Balışı cücərər göz yaşlarından,
Sevənlər darıxar aylı gecədə.

Fırlanar, tovlanar dəli pər kimi,
Uçar, qamarlayar ayın tərkini,
Unudar davanı, unudar kini,
Sevənlər darıxar aylı gecədə.

## DAHA NƏLƏRDİ

*Sevəndə yazılır sevgi şeiri,*
*Sonradan yazılan xatirələrdi.*

*Vüsal Oğuz*

Öldürdü bu sevgi, öldürdü bizi-
- Bıçqıdı, tətikdi, daha nələrdi..
Narahat ruhlardı yerə enənlər,
Həftənin günləri bəhanələrdi.

Yağıya, düşmənə gərəyimiz yox,
Qocalıb ölməyə diləyimiz yox,
Sevgidən keçirik, ələyimiz yox,
Ələnib keçənlər əfsanələrdi.

Güləndə üzünə düşən cizgidi,
Gedəndə yolunda qalan kədərdi..
"Sevəndə yazılır sevgi şeiri,
Sonradan yazılan xatirələrdi."

## SƏNƏ

O otaq saxlarmı dostluğumuzu?
Gözümüz keçmişə dönə, ağlaya..
O kiçik kirayə otağındakı
Sevgimiz sığmadı beşotaqlıya..

Toyda oynamırıq, sevincimiz qıt,
Döndümü fələyin çarxı tərsinə?
Atılıb-düşərdik, lap uşaq kimi
Bir köhnə radio musiqisinə..

Bəlkə, tək bu çatmır xoşbəxt olmağa,
Şirin xatirələr kövrəlir gendən.
Orada bir parça ondan gizlənib,
Orada bir parça səndən və məndən.

## SƏNSİZ YAŞAMAĞIN ADI

Sən Allah adamı, mən "şeytan" qadın,
Mən çatan muradın atı ölümdü.
"Başına dönəsən" belə sevginin,
Axırı ölümdü, zatı ölümdü.

Üstündə bir kəlmə adın olmayan,
Bu azğın ürəyi yadın olmayan,
Səndən uzaqlarda qadın olmayan,
Nədən ürəyində qatı ölümdü?..

Əlimin sıcağı, odu yoxdusa,
Ağzımın tamı yox, dadı yoxdusa,
Sənlə yaşamağın "adı yoxdu"sa,
Sənsiz yaşamağın adı ölümdü..

## ADAM

Ağlaya-ağlaya dənizə dönür,
içdən yana-yana soyuyur adam..
Göz qırpmır taleyin oyunlarına,
Axırda ömürlük uyuyur adam.

Nağıla oxşayar, yuxuya bənzər,
Dərdi quylananı dərd özü gəzər,
Hardasa gizli bir əl qəbir qazar,
Hardasa imarət sıvayar adam..

Bir damla su kimi içiləni var,
Artan, zəmi kimi biçiləni var,
Qazana-qazana kiçiləni var,
itirə-itirə böyüyür adam.

## GƏLƏRSƏN?

Sən kövrək adamsan, adam, ay adam,
Nisgili sinənə sıxıb gələrsən?
Quruyub dodağım, quruyub dilim,
Desəm duruxmuşam, çıxıb gələrsən?

Adamdan adama fərq olur, adam,
Qaçıb uzaqlara qərq olur adam,
Olur da yad gözdə bərq vurur adam,
Desəm karıxmışam, çıxıb gələrsən?

Nə qədər alovsan, bir elə suyam,
Səni düşündükcə çətin uyuyam,
Sən kövrək adamsan, adam, ay adam,
Desəm darıxmışam, çıxıb gələrsən?

